*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 138-141* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.138*

# Azərbaycan ədəbiyyatında avtobioqrafizmin formalaşması və inkişaf mərhələləri

**Mətanət Abdunova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, doktorant
E-mail: abdunovametanet@gmail.com

**Annotasiya.** Avtobioqrafizm müəllifin öz həyatından müəyyən faktları, hadisələri, emosiya və təcrübələri bədii əsərində əks etdirməsidir. Bu, müəllifin öz həyat hekayəsini tam şəkildə danışmaqdan daha çox, şəxsi hiss və düşüncələrinin bədii süjetə inteqrasiyasını nəzərdə tutur. Bu ifadə forması ilə yazıçı ədəbiyyatda həyat reallığını bədii süjetə gətirir. Avtobioqrafizm yalnız bioqrafik faktları təqdim etməklə məhdudlaşmır, eyni zamanda müəllifin dünyagörüşünü, psixoloji vəziyyətini, yaşadığı dövrün və cəmiyyətin ictimai-sosial durumunu əks etdirir. Azərbaycan ədəbiyyatı avtobioqrafik əsər baxımından zəngindir. Yazıçı inandırıcı lövhələr yaratmaq məqsədilə öz həyatından müəyyən faktları, hadisələri bədii süjetə uyğunlaşdırır. Bu da əsərin oxucuya daha real, orijinal təsir bağışlamasına səbəb olur. Məqalədə Azərbaycan bədii nəsrində avtobioqrafizm janrının yaranması və inkişafı araşdırılmaqla yanaşı, həm də avtobioqrafik elementlərin formalaşmasında müxtəlif tarixi, sosial, psixoloji amillərin təsiri tədqiq edilir.
**Açar sözlər:** avtobioqrafiya, bədii nəsr, Azərbaycan ədəbiyyatı, sosial-psixoloji amillər

**Məqalə tarixçəsi:** göndərilib – 01.07.2025; qəbul edilib – 11.07.2025

# The formation and stages of developmentof autobiographism in Azerbaijani literature

**Matanat Abdunova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Doctoral student
E-mail: abdunovametanet@gmail.com

**Abstract.** In prose literature, autobiographism refers to the reflection of certain facts, events, emotions, and experiences from the writer’s own life within a literary work. Rather than presenting a comprehensive account of the author’s own life story, this approach emphasizes the integration of personal feelings and thoughts into the fictional narrative. It represents a method by which the writer transforms lived reality into artistic fiction. Autobiographism is not limited to the presentation of biographical facts; it also conveys the author’s worldview, psychological state, and the socio-economic situation of the period and society in which he lived. Azerbaijani literature is rich in autobiographical elements. At times, writers incorporate aspects of their own lives into their works to enhance artistic expression, lend authenticity to scenes, and create a more convincing narrative. This ensures the seem more real and original to the reader. The article explores the emergence and development of the autobiographism genre in Azerbaijani prose, examining the historical, social, and psychological factors that have influenced the formation of autobiographical elements.
**Keywords:** autobiography, literary prose, Azerbaijani literature, social and psychological factors

**Article history:** received – 01.07.2025; accepted – 11.07.2025

## Giriş / *Introduction*

Azərbaycan bədii nəsrində avtobioqrafizmin formalaşması maraqlı inkişaf prosesi keçmişdir. Dünya ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da avtobioqrafik elementlər ədəbiyyat tarixinin ilk dövrlərindən başlayaraq şairlər, yazıçılar, mütəfəkkirlər tərəfindən müasir dövrümüzə qədər fərqli formalarda müxtəlif metod və janrlarda təzahür etmişdir.

Avtobioqrafik əsərlərdə müəllif öz xatirələri vasitəsilə təsəvvür və təxəyyülünü yaradıcı şəkildə birləşdirə bilir: "Avtobioqrafiyanı ona yaxın janrlardan fərqləndirən əsas cəhət onun müəllifin həyatını hərtərəfli, kompleks şəkildə göstərməsidir. Bu əsərlərin mövzusu müəllifin siyasi baxışları, ictimai fəaliyyəti, yaradıcılıq təcrübəsi və s. deyil, ümumilikdə onun həyatıdır. Əsər, məsələn, müəllifin yaradıcılıq fəaliyyətini ön plana çəkirsə və digər tərəflərə onların oxucuda tam təsəvvür yarada biləcəyi qədər diqqət ayırmırsa, bu, avtobioqrafiya yox, yaradıcılıq portretidir" [1, s.4].

Müəllifin bioqrafiyası, həyat yolu ilə bu və ya digər dərəcədə tanış olan oxucu üçün əsərdəki "avtobioqrafik obraz-müəllif-vətəndaş" triadik münasibətin sərhədlərini müəyyənləşdirmək çətin olmur. Belə ki, müəllifin özü, onun yaratdığı ədəbi obraz və cəmiyyətdə mövcud vətəndaş kimliyi avtobioqrafik əsərin baş qəhrəmanını oxucu ilə tanış edən əsas sintezdir. Bu avtobioqrafik üçlük modeli müəllifin həm fərdi münasibətini, həm də ictimai mövqeyinin təcəssümünü təmin edən əsas prioritetdir.

## Əsas hissə / *Main part*

Azərbaycan ədəbiyyatı tarixində avtobioqrafik elementlərə ilk olaraq klassik şairlərin əsərlərində, xüsusilə də divan poeziyasında rast gəlinir. XIII-XIV əsrlərdə ədəbiyyatımızda klassiklərin müxtəlif mövzularda yazılmış əsərlərində müəllifin fəlsəfi, simvolik məna daşıyan lirik "mən"i görünsə də o əsərlərə müasir anlamda "avtobioqrafik əsər" deyə bilmərik. Birbaşa avtobioqrafik nümunə olmasa da dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər Xəzinəsi", "Leyli və Məcnun", "Xosrov və Şirin" məsnəvilərində avtobioqrafik çalarlar açıq-aydın hiss edilməkdədir. Eyni zamanda, Xaqani Şirvani, İmadəddin Nəsimi kimi dahi sənətkarlar da öz yaradıcılıqlarında daxili dünyalarını, yaşadıqları cəmiyyətin mənfi və müsbət tərəflərini təsvir edərkən şəxsi dünyagörüşlərindən, həyati təcrübələrindən çıxış etmişlər.

Hökmdar-şair Şah İsmayıl Xətainin hökmdar kimi yaşadığı daxili gərginliklər bəzən ictimai xarakterli qəzəllərində poetik "mən"in dilindən çıxan ifadələrlə oxucuya çatdırılır.

XVI əsrdə Füzuli qəzəllərində, "Leyli və Məcnun" poemasında da avtobioqrafizmə xas elementlər diqqəti cəlb edir. Həmçinin Füzuli Azərbaycan ədəbiyyatında anadilli nəsrin ilk nümunəsi hesab olunan "Şikayətnamə" əsərində dövrün rəsmi dairələrindən, sadə insanlara biganə olan laqeyd dövlət adamlarından şikayət edərkən, əslində zəmanəsinin ağır ictimai-sosial və mənəvi problemlərini əks etdirmişdir. Xüsusən əsərin ikinci hissəsində şairin ovqaf idarəsindəki işçi ilə dialoqu əsərin məzmununu, şairin qəlbindəki sıxıntıları oxucuya daha açıq formada çatdıra bilir**:** "Salam verdim, rüşvət deyildir, – deyə almadılar. Hökm göstərdim, faydasızdır deyə qulaq asmadılar. Əgər üzdə nəzakət göstərdilərsə, ancaq işarə ilə bütün suallara cavab verdilər. Dedim "Ey sahiblər, bu nə xətalı iş və qaşqabaqdır". Dedilər "Daima bizim adətimiz budur". Dedim "Mənim rüşvətimi vacib görmüşlər və mənə təqaüd bəratı vermişlər ki, Ovqafdan həmişə fayda görəm və padşaha asudə dua edəm." Dedilər "Ey yazıq, sənə zülüm etmişlər və sənə əsas vermişlər ki, həmişə faydasız savaş edəsən və uğursuz üzlər görüb, sərt sözlər eşidəsən" [2, s.5]. Bu nümunə ilə tanış olduqda görürük ki, avtobioqrafik mətn kimi qəbul olunan "Şikayətnamə" əsərində insanlığa biganə olan dövlət işçilərinə haqlı etiraz səsini ucaltmağa obrazın prototipi ziyalı şairin özüdür.

XVIII-XIX əsrlərdə Azərbaycan ədəbiyyatında xatirə və avtobioqrafik xarakterli əsərlər daha geniş yayılmağa başlamışdır. Molla Pənah Vaqif və Molla Vəli Vidadi kimi şairlər öz şeirlərində şəxsi həyatlarını, yaşadıqları dövrün ictimai-siyasi hadisələrini də əks etdirirdilər. Ağa Məhəmməd Şirvani, Abbasqulu ağa Bakıxanov kimi yazıçılar isə xatirə və səyahətnamələr ilə bu janrın inkişafına daha dəyərli töhfələr vermişlər. Bu baxımdan Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri avtobioqrafik elementləri ilə diqqət çəkir. Bu əsərdə müəllifin ideoloji yanaşması xüsusən tarixi hadisələrə münasibətində öz əksini tapmışdır. Əsərin bir çox yerində Bakıxanovun Şərq və Qərb elmlərinə bələdliyi, dünyanın bir çox ölkələrinə səfəri, tarixi abidələri ziyarəti haqqındakı qeydləri müəllifin şəxsi həyatından müəyyən detalların ifadəsi idi. Əsərdə eyni zamanda, Abbasqulu ağa Bakıxanov Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri və sənətkarlar haqqında məlumatlar verməklə ədəbiyyat tarixinə öz töhfəsini vermişdir: "Gülüstani-İrəm"də digər şairlər haqqında da bu cür ümumiləşdirilmiş portret cizgiləri öz əksini tapmışdır. Bunlar Azərbaycanda həmin şairlərə həsr olunmuş ilk elmi-bioqrafik avtoportret kimi mühüm əhəmiyyət kəsb edir. Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm"də özünün həyat və yaradıcılığı haqqında təqdim etdiyi qısa bioqrafik oçerk ədəbiyyatşünaslıq elmindəki nadir avtoportretlərdən biridir" [3, s.17].

XIX əsrin ikinci yarısı Azərbaycan ədəbiyyatı daha çox milli ədəbi fikrin inkişafı, milli özünüdərk, ədəbiyyatın estetik rolu ilə yanaşı, ictimai tərbiyə funksiyasını öz boynuna götürdüyü bir dövr kimi səciyyələnə bilər: "Maarifçi realizmin əsasında ağlauyğun cəmiyyət durur. Ağlın və dünyəvi elmin qanunları əsasdır. Burada humanizm prinsipləri insan hüquqlarının qorunması əsasdında gündəmə gəlir. İnsanları keçmişin "geridəqalmış" həyatından uzaqlaşdırmaq üçün islahatlar aparmaq və islah etmək maarifçi yazıçıların əsas məqsədidir" [4, s.124]. Maarifçilik ideyalarının gücləndiyi, milli özünüdərkin formalaşması ilə yadda qalan bu dövr yazıçılarını yaradıcılıqlarında, xüsusən nəsrdə yaradılan bir sıra maarifçi obrazlar müəllifin şəxsi dünyagörüşünü, yenilikçi ideyalarını əks etdirən obrazlardır. Müəllif yaratdığı belə maarifçi obrazlarda öz şəxsi fikirlərini, hisslərini və ən əsası təbliğ etmək istədiyi ideyanı bəzən onların nitqində, monoloqlarında daha cəsarətli şəkildə ifadə etməyə başlayır. Və bu maarifçi obrazlar XIX əsrin sonlarının avtobioqrafik obrazlarına çevrilir. Oxucu əsəri oxuduqca həmin obrazlar vasitəsilə müəllifin qabartmaq istədiyi məqamları duyur.

XIX əsrin sonlarında avtobioqrafizm əsasən məktub, hekayə, povest, satirik poeziya janrlarında və publisistika sahəsində təzahür edir. Azərbaycan ədəbiyyatında dram janrının ilk nümunəsini ərsəyə gətirən görkəmli maarifçi Mirzə Fətəli Axundzadə yaradıcılığına nəzər salsaq, xüsusən onun "Kəmalüddövlə məktubları" əsərini qeyd edə bilərik ki, bu əsər ədəbiyyat tarixinə açıq fəlsəfi avtobioqrafizm örnəyi kimi daxil olmuşdur.

XX əsrin birinci yarısında yazılan nəsr nümunələri müəyyən senzura səbəbilə çətin yollardan keçdiyi üçün daha simvolik xarakter daşıyırdı. Bu dövrdə yazılan avtobioqrafik əsərlər sosialist ideologiyası çərçivəsində yazılmağa məcbur edildiyindən, yaradıcı şəxsiyyətlər bəzən dövrün, cəmiyyətin problemlərindən birbaşa deyil, mətnaltı kontekstdə söz aça bilirdilər. Belə avtobioqrafik elementlərlə zəngin əsərlərə Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Süleyman Rəhimovun "Şamo", Mirzə İbrahimovun "Gələcək gün" nümunələrini göstərmək olar. XX əsrin ikinci yarısında, xüsusən də 1956-cı ildən etibarən ədəbiyyata "Xruşşov mülayimləşməsi" öz təsirini göstərərək, yazılan əsərlərdə şəxsi psixologiya, fərdi düşüncələr, milli mövzular daha çox aktuallaşmağa başladı. Əsrin ikinci yarısında İsa Muğanna "İdeal", "Həyatımdan səhifələr", Söhrab Tahir "Ayrılıq" romanı, İlyas Əfəndiyev "Üçatılan", "Sən həmişə mənimləsən", "Geriyə baxma qoca", Süleyman Vəliyev "Qanadı sınmış quş da uçarmış", Anar "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Sizsiz", "Mən, Sən, o və telefon", Əkrəm Əylisli – "Ətirşah", "Kür qırağının meşələri", "Yuxular görənlərin

yuxusu", Əli Vəliyev "Budağın xatirələri" və başqa əsərlərdə lirizm, şəxsi hisslərin, duyğuların birbaşa ifadəsi, dərin nostalgiya özünü aşkar göstərməkdədir.

### Nəticə / *Conclusion*

Beləliklə, Məqalədə qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan ədəbiyyatında xüsusi ad, janr olaraq qeyd olunmasa da, bariz əlamətləri hiss olunan avtobioqrafizmin tarixi qədimdir. Belə əsərlərlə tanış olduqca bir sıra müəlliflərin nəyə görə avtobioqrafik əsərlər yazmağa daha çox meyilli olduğunu anlamaq çətin deyil. Belə ki, avtobioqrafik əsər həm müəllif, həm də bir çox məqamlarda oxucu üçün kitab vərəqlərindən oxucu qəlbinin ən dərinliklərinə cığır aça biləcək səmimi bir dost, həmdəm rolunu oynaya bilir. Müəllif bir avtobioqrafik əsəri ərsəyə gətirməklə bəlkə də, bəzən sadə bir uşaqlıq xatirəsini verərkən, oxucunun da öz qəlbinə yol tapmağına bələdçilik etmiş olur.

### Ədəbiyyat / *References*

1. Dadaşova Ş. Ədəbi avtobioqrafiyanin nəzəriyyəsi və tipologiyası. Avtoreferat. – Bakı, 2022.
2. Füzuli M. Şikayətnamə. – Bakı: Gənclik, 1992.
3. Həbibbəyli İ. Azərbaycan Ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. – Bakı: Elm, 2019.
4. Məmməd T. XIX əsr Azərbaycan ədəbiyyatı. – Bakı, 2010.

## Формирование и этапы развития автобиографизма в азербайджанской литературе

**Метанет Абдунова**
Институт литературы имени Низами Гянджеви НАНА, докторант
E-mail: abdunovametanet@gmail.com

**Резюме.** Автобиографизм представляет собой отражение автором в художественном произведении определённых фактов, событий, эмоций и переживаний из собственной жизни. Это понятие подразумевает интеграцию личностных переживаний, чувств и мыслей в структуру художественного произведения, а не полное изложение биографии автора. Посредством этой формы выражения писатель переносит реальность жизни в художественный сюжет. Автобиографизм не ограничивается лишь представлением биографических фактов, также отражает мировоззрение автора, его психологическое состояние, социально-исторический контекст эпохи, в которой он жил и творил.
Азербайджанская литература богата автобиографическими произведениями. Для достижения художественной достоверности писатель интегрирует в сюжет определённые факты и события из собственной жизни. Это способствует тому, что произведение оказывает на читателя более реалистичное и оригинальное впечатление. В статье рассматривается возникновение и развитие жанра автобиографизма в азербайджанской художественной прозе, а также анализируется влияние различных исторических, социальных и психологических факторов на формирование автобиографических элементов.
**Ключевые слова:** автобиография, художественная проза, азербайджанская литература, социально-психологические факторы